# Şəffaf və ədalətli seçki nümunəsi

## Bələdiyyə seçkiləri Azərbaycanın demokratik inkişafının növbəti təsdiqi oldu

Yanvarın 29-da keçirlən bələdiyyə seçkiləri məlum həqiqətlərə yeni işıq saldı. Belə ki, bu seçki bir daha göstərdi ki, Azərbaycan demokratiya yolu ilə inkişaf edir və ölkəmizdə şəffaf və təkmilləşdirilmiş demokratik seçki sistemi formalaşıb.

### Mütərəqqi seçki sistemi

Seçkilər demokratik cəmiyyətlərdə seçkili orqanların formalaşdırılmasında vətəndaşların iştirak formasıdır. Həm də siyasi bir hadisə olan bu prosesin nəticəsində əhali idarəçiliyi və hakimiyyətin qollarını etimad göstərdiyi siyasi qüvvəyə və ya şəxsə etibar edir.

Azərbaycanda seçkilərin ədalətli və şəffaf keçirilməsi ilə bağlı kifayət qədər demokratik təcrübə və zəngin ənənələr formalaşıb. Bütün bunlar, o cümlədən mövcud olan demokratik ənənələr öz başlanğıcını 1993-cü ildən götürür. Məhz həmin il Ulu Öndər Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsi ilə nəticələnən seçkilər Azərbaycanda demokratik seçki ənənəsinin formalaşmasının başlanğıcı oldu. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə respublikamızda vüsət alan demokratik inkişafın tərkib hissəsi kimi seçki sistemi də ildən-ilə təkmilləşdirildi.

1993-cü ildən indiyə kimi respublikamızda bir neçə dəfə prezident, parlament və bələdiyyə seçkiləri, referendumlar keçirilib. Ayrı-ayrı vaxtlarda parlamentə və bələdiyyələrə əlavə və təkrar seçkilər də təyin edilib. Hər bir seçki Azərbaycanın demokratiya yolu ilə inkişafının, cəmiyyətdə demokratik dəyərlərin bərqərar olmasının təcəssümü kimi yadda qalıb. Və hər bir seçki Azərbaycanda mütərəqqi seçki sisteminin olduğunu nümayiş etdirib.









### Seçicilər sərbəst şəkildə öz iradələrini ifadə etdilər

Yanvarın 29-da keçirlən bələdiyyə seçkiləri respublikamızda indiyədək keçirilən sayca 6-cı bələdiyyə seçkiləri idi. Seçki kampaniyası ötən il noyabrın sonlarında başlamışdı. Seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlər Mərkəzi Seçki Komissiyasının təsdiqlədiyi təqvim planına əsasən vaxtında icra olunmuşdu.

Həmin gün Azərbaycanda mövcud olan 685 bələdiyyəyə seçkilər keçirilib. Seçicilər bu bələdiyyələr üzrə 8071 bələdiyyə üzvünün seçilməsinə səs verdilər. Seçicilərin 31,45 faizi (1 milyon 874 min 810 nəfər) səsvermədə iştirak edib.

Bələdiyyə seçkiləri Azərbaycanda mövcud olan 125 dairənin 118-nin ərazisini əhatə edib. Bütün seçki məntəqələri saat 08:00-da açılıb və 19:00-da bağlanıb. Gün ərzində seçicilərin fəallığı ilə bağlı ictimaiyyətə beş dəfə məlumat verilib. 1000 seçki məntəqəsində seçkilərin gedişi internetdən əvvəldən-axıradək, birbaşa və arasıkəsilmədən izlənilib.

Bütövlükdə, bütün seçki dairələrində seçkilər normal keçdi, gün ərzində Mərkəzi Seçki Komissiyasına seçkilərin nəticəsinə təsir edə biləcək heç bir məlumat daxil olmadı. Seçicilər sərbəst şəkildə öz iradələrini ifadə edərək, istədikləri namizədlərə səs verdilər. Müşahidəçilər də öz açıqlamalarında seçkilərin ədalətli və şəffaf keçirildiyini bəyan etdilər.

*Rəşad CƏFƏRLİ,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 31 yanvar (№ 21).- S.4.